*Vəli HƏBİBOĞLU*
***Azərbaycan Milli EA Beynəlxalq Münasibətlər İnstitutunun direktor müavini, fəlsəfə elmləri doktoru, professor***

## ÖYÜNÜLƏSİ ALİM

Xalqımızın ləyaqətli, işıqlı ziyalıları çoxdur. Onlar haqqında düşünəndə, fikir söyləyəndə, özləri ilə görüşüb söhbət etdikdə mənəvi cəhətdən zənginləşirik. Çünki belə ziyalılar xalqın fəxridirlər, ona daim başucalığı gətirirlər.

Təkcə respublikamızda deyil, doğma vətənimizdən çox-çox uzaqlarda tanınan belə ziyalılardan biri haqqında fikir söyləməyi özümə mənəvi borc sayıram.

Tarix elmləri doktoru, professor, əməkdar mədəniyyət işçisi Hacı Abuzər Xələfov xalqımızın, elmimizin yetişdirdiyi qiymətli ziyalılardandır. Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafı, bu sahədə milli kadrların yetişdirilməsi bilavasitə onun adı ilə bağlıdır.

Mən özümü çox xoşbəxt hesab edirəm ki, Abuzər müəllimin tələbəsi olmuşam. Təxminən otuz beş il əvvəl Abuzər müəllim mənə dərs demişdir. Həmin dövrdə respublikamızda kitabxanaçılıq fakültəsinin, eləcə də bu sahə ilə bağlı milli kadrlarla aparılan elmi tədqiqat işlərinin başında duran, Azərbaycanda kitabxana işi ilə bağlı öz məktəbini yaradan Abuzər Xələfov bütün həyatını, sağlamlığını məhz bu sahənin inkişafına həsr etmişdir.

Bir müəllim, ziyalı, şəxsiyyət, alim kimi mən onunla fəxr edirəm.

Abuzər müəllim biz tələbələrin yaddaşında saf, təmiz, sözünə bütöv, qayğıkeş, haqqın tərəfdarı, ədalətli bir insan kimi qalmışdır.

Abuzər müəllim Azərbaycan üçün minlərlə kadr yetişdirmişdir. Onun tələbələrinə hər yerdə rast gəlmək mümkündür. Bu tələbələr indi də öz sevimli müəllimlərini



böyük ehtiramla xatırlayırlar, imkan daxilində görüşüb ondan məsləhət alırlar.

Həyatda qazandığım uğurlarda sevimli müəllimim Abuzər Xələfovun böyük əməyi var. Onun atalıq qayğısı, mehriban nəvazişi, təyinat zamanı mənə göstərdiyi etimad sayəsində bu gün elmdə özümə görə müəyyən yer tutmuşam.

Əziz Abuzər müəllim, icazə verin Sizi doğum gününüz münasibətilə təbrik edim, Sizə həyatda ən böyük nemət olan cansağlığı arzulayım!

Sizin kimi ziyalılarla, ağsaqqal alimlərlə xalqımız həmişə fəxr edir.

Siz Danko kimi ürəyinizi məşəl edib Azərbaycanda kitabxanaşünaslıq elminin inkişafına işıq salmısınız, bu gün də bu işi şərəflə yerinə yetirirsiniz.

Gün o gün olsun ki, Sizi 100 illik yubileyiniz münasibətilə təbrik edək.

Sizi bağrıma basır, ən gözəl arzularımı diləyirəm!